*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 192-196* *ISSN: 2663-4406*

**UOT:** 821.512.162(091)

Elza Rəhimova *

# MEHDİ HÜSEYNİN "ALOV" PYESİNDƏ TƏMİZ İNSAN PROBLEMİ

***Xülasə***

Azərbaycan ədəbiyyatının əsas ideoloji istiqamətlərindən olan mənəvi-əxlaqi problemə həsr olunmuş bu məqalə xalq yazıçısı Mehdi Hüseynin "Alov" pyesi əsasında işlənmişdir. Milli mentalitetimizə xas olan bu problem həyatımızda daha vacib məfhum olduğu üçün yazıçını narahat etmişdir. "Alov" pyesi bu səbəbdən yaranmışdır.

Personajların mahiyyəti gərəkli hadisələrdə iştirakına, mövqelərinə görə dəyərləndirilir. Yazıçı insanda nəciblik, düzlük, vətənpərvərlik, fədakarlıq, xeyirxahlıq, yaxşılıq kimi yüksək mənəvi keyfiyyətləri uca tutur.

Mehdi Hüseyn pyesdə mərkəzə çəkdiyi hadisələri mənəvi-əxlaqi mövqedə yekunlaşdırır. Daha doğrusu, səhvin, ağılsızlığın, xəyanətin, iti nəfsin, fabrikə, cəmiyyətə, vətənə vurduğu ziyanın əzabını məhz mənəviyyat çəkir. Cəlalın, Rəfiqənin, Kərim dayının və b. mənəvi gözəlliklərinin Əmin Bəxtiyarov, Bədəl Sadıyev və başqalarının əxlaqi eybəcərlikləri üzərində qələbəsi ilə bitir.

Pyesin mahiyyətini onun mövzusunun öz dövrü üçün aktuallığı təşkil edir. Təkcə öz dövrü üçün yox, pyes bütün dövrlər üçün aktualdır.

**Açar sözlər:** Mehdi Hüseyn, "Alov" pyesi, mənəvi-əxlaqi problem

## THE PROBLEM OF GOOD HUMAN IN THE PLAY "FLAME" BY MEHDI HUSEIN

***Summary***

Focusing on one of the ideological directions in Azerbaijani literature e.g. moral and spiritual problems the given article is written on the basis of the play "Flame" by Azerbaijani national writer Mehdi Husein. The writer was very concerned about the issue inherent in the mentality of Azerbaijani people being an essential one. The play "Flame" was written with this purpose. The significance is attached to the characters due to their engagement in the important events and their viewpoints. The author emphasizes such moral qualities as generosity, honesty, love for motherland, selflessness and kindness.

Mehdi Husein finalizes the events centrally highlighted in the play from the point of view of morality and spirituality. More precisely it is the spirituality that suffers from the mistake, foolishness, treason, avidity, damage caused to the plant, society and motherland. In the end the spiritual superiority of Jalal, Rafiga, Uncle Karim and etc. wins moral "ugliness" of Amin Bakhtiyarov, Badal Sadiyev and others.

The actuality of the play for the period during which it was written constitutes its essence. However, the play retains its actuality for all times.

**Key words:** Mehdi Husein, "Flame" play, moral-ethical problem

## ПРОБЛЕМА ЧЕСТНОГО ЧЕЛОВЕКА В ПЬЕСЕ «ПЛАМЯ» МЕХДИ ГУСЕЙНА

***Резюме***

Освещая морально-духовные проблемы, являющиеся одним из идеологических направлений в азербайджанской литературе, статья написана на основе пьесы азербайджанского народного писателя Мехди Гусейна «Пламя». Автор глубоко обеспокоен этим важным вопросом, который присущ менталитету азербайджанского народа. Пьеса «Пламя» написана именно с этой целью. Значимость, придаваемая персонажам пьесы, связана с их участием в важных событиях и их мнениями. Автор подчеркивает такие моральные ка-

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu.

чества, как благородство, честность, любовь к родине, самоотверженность и доброта.

Мехди Гусейн завершает особенно подчеркнутые события в пьесе с нравственно-духовной точки зрения. Точнее сказать, именно духовность страдает в результате ошибок, безрассудства, предательства, алчности, ущерба, нанесенного фабрике, обществу и родине. В конце моральное превосходство Джалала, Рафиги, дяди Карима и т.д. одерживает верх над моральным уродством Амина Бахтиярова, Бадала Садиева и др.

Значимость пьесы составляет ее актуальность со временем, когда она была написана. Однако пьеса сохранила свою актуальность и по сей день.

**Ключевые слова:** Мехди Гусейн, пьеса «Пламя», морально-нравственные проблемы

**Giriş.** Mehdi Hüseyn XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən idi. Çoxşaxəli ədəbi fəaliyyətə malik olan Mehdi Hüseyn ədəbiyyata bədii əsərlərlə gəlmişdir. Yəni onun yaradıcılığının əsas qayəsini bədii əsərlər – yazıçılıq təşkil etsə də, ədəbi tənqid, oçerk, publisistika, cəbhə xatirələri və s. yazıları da yazıçının yaradıcılığını zənginləşdirmişdir.

Qırx ilə yaxın ədəbi fəaliyyətlə məşğul olan Mehdi Hüseynin ilk qələm təcrübəsi "Qoyun qırxımı" hekayəsidir. Yazıçının əsərlərinin ideya-mövzu dairəsi geniş və müxtəlifdir. Buraya tarixi, müasir, kənd həyatı, şəhər sənayeçiləri, istehsalat və məhəbbət, cəmiyyətin sosial durumu ilə bağlı aktual, ictimai və mənəvi-əxlaqi problemlər və s. daxildir.

Mehdi Hüseyn hələ 30-cu illərdən yazdığı kiçik hekayələrindən tutmuş – "Xavər", "Toy", "Tunel", "Fəryad", "Köç yolları", irihəcmli povest, roman, pyeslərində – "Qara daşlar", "Abşeron", "Səhər", "Tərlan", "Bahar suları", "Nizami", "Cavanşir", "Şeyx Şamil", "Alov" və s. əsərlərində mənəvi-əxlaqi problemlər bir ana xətt kimi gedir. Milli mənəvi dəyərlərimizdən bəhrələnən bu əsərlər sovet dönəmində yazılsa da yüksək amal mövqeyindən cəsarətlə qələmə alınmışdır. Bunlar Mehdi Hüseyni həm xalq yazıçısı kimi, həm də ictimai xadim kimi səciyyələndirən cəhətlərdir. Onun əsərlərində təsvir olunan müsbət obrazlar mənəvi əxlaqi meyarlardan qaynaqlanan - mərd, həssas, vicdanlı qəhrəmanlardır. Belələri Əmrah, Qəhrəman, Şirəli ("Daşqın"), Tərlan, Mürsəl kişi, Asəf, Məryəm, Əziz ("Tərlan"), Qivami, Toğrul ("Nizami"), Şamil, Hacı Murad ("Şeyx Şamil"), Cavanşir, Qartal, Qılınc ("Cavanşir") və b. misal ola bilər. Yazıçı mənəvi meyarlardan məhrum olan obrazları da unutmamışdır. Belələrinə hər addımda hiylə quran, xəyanət edən, zəifləri özünə tabe edən rəzillər, hakimiyyəti təmsil edən – Mollayev, Qəşəm, Söhrab və başqalarıdır. Müxtəlif mövzularda – həm müsbət, həm mənfi obrazlar yaradan yazıçı haqqında professor Qulu Xəlilov yazırdı: "Mehdi Hüseyn elə ağıllı, uzaqgörən ədib idi ki, sənətə gətirilən hər bir tipin mövqeyini, çəkisini dərhal müəyyənləşdirə bilirdi. Bilirdi ki, rəzaləti, riyakarlığı, əyriliyi, yuxarılar müdafiə etməsə, aşağılar – tabelikdə olanlar bu cəsarəti edə bilməzlər" [1, s.158]. Professor Qulu Xəlilov fikrini yazıçının "Qara daşlar" romanında Mollayev obrazı ilə əsaslandırır.

Qeyd etdik ki, Mehdi Hüseynin yaradıcılığı çoxşaxəlidir. Ədəbiyyata bədii əsərlərlə gələn yazıçı qələmini ədəbi tənqidi məqalələrlə də sınamış və "Sədaqət və mənəviyyat müğənnisi", "Sabir – novator", "Böyük aşıq", "M.F.Axundov dramaturgiyası" və s. məqalələri ilə ədəbiyyatımızı zənginləşdirmişdir.

Hələ yaşadığımız sovet dönəmində cəmiyyətdə yaranan durğun və tutqun atmosferdə – mənəviyyatsızlıq, əliəyrilik, rüşvət və s. kimi əməllər sosial ədalətsizlik kimi dəyərləndirilirdi. Belə vəziyyət təkcə bizim məmləkətimizdə deyil, digər sovet respublikalarının ədəbiyyatında da aktual idi.

İnsan əxlaqına, mənəviyyatına zidd olan bu naqis cəhətlərə milli ədəbiyyatımız heç vaxt biganə qalmamışdır. Qədim dövrlərdən üzü bu yana bütün dövrlərdə ədəbiyyatımızın insan xarakterindəki bu cür mənfiliklərə toxunması dəqiq desək, bu cəhətlə mübarizəsini akademiyanın müxbir üzvü Yaşar Qarayev belə səciyyələndirir: "Bizim ədəbiyyatımızda ağılın dastanına zirvə – Nizamidir; eşqin və qəmin faciəsinə meyar – Füzulidir; qeyrətin ağrısına, namusun yanğısına timsal – Sabirdir; həm eşq, həm ağıl, həm də qeyrət üçün borcun cavabdehliyinə, ölçüsünə əmsal – Cəlil Məmmədquluzadədir" [2, s.230]. Həqiqətən də saflığın, əxlaqın, düzlüyün qorunması işində

ədəbiyyatımız və ədiblərimiz – Sabir, Cəlil Məmmədquluzadə, C.Cabbarlı və b. tutarlı əsərlər yazmış, bu naqis cəhətləri humanizm, yüksək mənəvi dəyərlər mövqeyindən cəmiyyətə, oxuculara çatdırmışlar.

Mehdi Hüseynin də yaradıcılığı belə motivlər üzərində qurulmuşdur. Bu cür motivlər yazıçının yaradıcılığında aparıcı xətt kimi gedir. Onun namuslu yaşayıb-yaratmaq qədər ali məqsədə xidmət edən "Alov" pyesi belə əsərlərdəndir. Pyesdə baş verən hadisələr uzaq rayonda yerləşən ipək fabrikində cərəyan edir. Müxtəlif xasiyyətli, müxtəlif xislətli, müxtəlif əxlaqlı adamların işlədiyi bu fabrikdə baş verən hadisələr də müxtəlif səpkidədir. Lakin əsərin ümumi pafosu xeyirxahlığa və yaxşılığa xidmət edir. Bu mənada Mehdi Hüseynin yaradıcılığının tədqiqatçısı Yəhya Seyidov belə yazır:" Xeyirxahlıq və yaxşılıq anlayışları "Alov" dramında Mehdi Hüseyni düşündürən başlıca əxlaqi problemdir" [3, s.195].

Pyesdə baş verən hadisələr fabrikdə cərəyan edir. Müəllifin məqsədi fabrikdə yaranan hadisələrin fonunda isə naqis əməllərlə xəyanətin vəhdətinə, ədalətlə haqsızlığın toqquşmasına işıq salmaqdır. Bu işıq isə qəsdən yandırılan fabrikin alovunun işığıdır.

"Alov" dramında Mehdi Hüseyn hadisələri personajların xarakterləri, dünyagörüşləri, işə münasibətləri vasitəsi ilə açır, təqdim edir. Fabrikin direktoru fabrikin yaranmasında əməyi olan "Kərim dayı" kimi tanınan Kərim Rəhimlidir. O, baş mühəndisdən tutmuş fəhlələrə qədər bütün kollektivə atalıq qayğısı ilə yanaşan, mənən təmiz, qəlbən saf, ürəyiyumşaq, sülhsevər bir ahıldır. Lakin özü demişkən "İclaslara başı qarışdığından", əslində isə sadəlövh, ləyaqətli, fabrikin işinə can yandıran adam olduğundan, fabrikdə işləyənləri özü kimi sanaraq maskalı, fabrikdən öz şəxsi məqsədləri üçün işləyənləri, dələduzları əsl vicdanlı işçilərdən ayırd edə bilmir.

Mehdi Hüseyn pyesdə müsbət obrazlarla mənfi personajların mahiyyətlərini elə məharətlə qələmə almışdır ki, onların hansının daha qüvvətli olmasını səciyyələndirmək çətindir. Bunu tənqidçi-alim Yaşar Qarayev daha dəqiq qeyd edir: "Kimdir qəhrəman: Qaşqay, ya Kamalov? Yaxud əsas mövzu nədir? Adətən, əsəri hüquqşünaslarımıza həsr olunmuş pyes kimi hesab edirlər. Lakin bu barədə mübahisə etmək olar. Cəlal süjetdə heç də Kamalovdan az əhəmiyyət daşımır. Daha doğrusu, əsərdə bir qəhrəmanın taleyi uğrunda mübarizə aparan iki adamın fədakar fəaliyyəti təsvir olunur: əsas qəhrəman həbsdə və xəstəxanadadır, iki vətəndaş Kamalov və Rəfiqə biri onun həyatı, ikincisi onun namusu, şərəfi uğrunda mübarizə aparır. Pyesdə xatırladılan simvolik surət - Səməndər quşu bu surətlərdən daha çox hansına şamil olunur? Cəlal iki dəfə yanmışdır. Birinci dəfə Böyük Vətən müharibəsində tankda, ikinci dəfə fabrik yanğınında. Fərhad Kamalov daha çox düzlük və ədalətə olan etiqadı, ürək yanğısını ifadə edir" [4, s.301-302]. Həqiqətən də fabrikin işi, fəhlələrin həyatı, mənəvi mövqeləri bu qəhrəmanları həmrəy edib, həqiqət uğrunda mübarizəyə sövq etmişdir. Və bu surətlərin mənəvi dəyərlərimizə söykənən fəaliyyətləri onları əsas qəhrəman kimi sevdirir.

AMEA-nın müxbir üzvü, teatrşünas-alim Cəfər Cəfərovun da bu iki qəhrəmana münasibəti maraqlıdır: Pyesdə "Alov" məfhumu iki mənada səslənir. Çox səciyyəvidir ki, hər iki mənanı ifadə etmək üçün dramaturq Səməndər quşu haqqında qədim xalq əfsanəsindən, xalq dühasının yaratdığı çox şairanə bir obrazdan istifadə edir. Əfsanəyə görə, Səməndər quşunu nə qədər odlara qərq edib yandırırlarsa, o yanmır, yaşayır. Biz bu əfsanəni iki dəfə, həm Cəlal Qaşqayın, həm də Fərhad Kamalovun dilindən eşidirik. Cəlal bu əfsanədən istifadə edərkən Səməndər əfsanəsində ədalətin yenilməzliyini görür. Bu da onun üçün çox təbiidir, çünki onun nicatı ədalətin bu yenilməzliyindədir. Kamalov isə bu obraza, ölərkən müraciət edərək deyir ki, "insan bu əfsanəni yaradanda özünün böyük əməllərini nəzərdə tutub". Bu da Fərhad üçün təsadüfi deyil. Çünki o özü ölməz əməlləri ilə şöhrət qazanmış insanlardan biridir" [5, s.285].

Fərhad Kamalovun əsas məqsədi fabrikdə baş verən cinayəti araşdırıb qanunun, ədalətin aliliyini sübut etməkdir. Ürəyində güllə qəlpəsi gəzdirən, iki dəfə üzündən yanıq yarası alan, haqsızlığa məruz qalıb, ilyarım günahsız olaraq həbsdə yatan – Cəlal Qaşqay özünün haqlı işlərinə və fədakar əməlinə görə ədalətli münasibət gözləyir.

Kamalov təhqiqatını çox dəqiq və təmkinlə aparır. Kərim Rəhimli isə fabrikin kim tərəfindən yandırıldığını aşkar etmək üçün çox tələsir. Kamalovun tələsmədən israrla, təmkinlə iş aparması onu hövsələdən çıxarır. Belə bir dialoqa fikir verək:

"**Fərhad:** Rəfiqə xanım, buyurun cavab verin.

*Pauza*

**Kərim:** Yoldaş Kamalov, şahid suala cavab vermək istəmir.

**Fərhad:** Buna onun ixtiyarı yoxdur, vətəndaş Rəhimli.

**Kərim:** Canım-gözüm, siz nə danışırsınız? İndi hansı dövrdür ki, hədə-qorxu ilə ifadə alasınız? Mənim qızımı nə üçün qısma-boğmaya salırsınız?" [6, s.196].

Əmin Bəxtiyarov fabrikin "təhlükəli", heç bir pis əməldən çəkinməyən əsas mənfi personajıdır. Onun bu və digər xüsusiyyətlərini tənqidçi Yəhya Seyidov belə səciyyələndirir: "Dramın əsas mənfi surəti olan Əmin cinayətinin cəzasından qorxaraq, onları gizlətmək üçün dəridən çıxır. Əsərin müsbət qəhrəmanları da ona münasibətdə təsvir olunmuşdur. Rəfiqəyə məhəbbət rəqiblərin münasibətini daha da kəskinləşdirmiş, Əminin qızdan rədd cavabı alması, onun intiqam arzusunu sürətləndirmişdir. Bəxtiyarov çirkin işlərinə maneçilik törədən baş mühəndis Cəlal Qaşqayı ləkələmək məqsədi ilə fabrikdə yanğın törətmiş, hazır malı oğurladıb satdırmış, üstəlik namuslu gəncin cani kimi baş mühəndisin həbs edilməsinə nail olmuşdur. Əmin baş mühəndisin yerini tutmuş, amma Rəfiqənin qəlbinə yol tapa bilməmişdir" [3, s.197]. Qeyd etdiyimiz bu sitatda Mehdi Hüseyn pyesdə surətlərin daxili aləmini işıqlandırmaq üçün zəruri imkan yaradan gərgin vəziyyətdə personajların həyata və işə münasibətini inandırıcı əsaslandırmağa müvəffəq olmuşdur. Yazıçının bu bacarığı Kərim Rəhimlinin sadəlövh mahiyyətində, Rəfiqənin işıqlı xislətində bariz nümayiş olunur. Əmin Kərim Rəhimlini özünə inandırmışdır. Daha doğrusu, mənən saf Rəhimli Əmin Bəxtiyarovun hiyləsinə aldanmış, yanlış nəticəyə gəlmişdir.

Rəfiqə isə yüksək mənəvi-əxlaqi keyfiyyətləri özündə bütövlükdə, işıqlı ehtiva edən bir azərbaycanlı qızıdır. Bu obrazda toplanan mənəvi dəyərlər azərbaycançılığın, eləcə də Azərbaycan ədəbiyyatının qədimlərdən gələn, nəsildən-nəslə ötürülən ali keyfiyyətləridir. Azərbaycan tarixində, milli söz sənətimizdə bütün dövrlərdə Burla xatunlar, Sara xanımlar, Həcərlər, Nigarlar olublar. Yaşadığımız XX əsrdə də belələri az deyildi. Bunlardan biri də Mehdi Hüseynin böyük şövqlə yaratdığı Rəfiqə obrazıdır. Rəfiqə – əzizlənən övlad, işıqlı düşünən gənc qız, sevilən və sevməyi bacaran, mahir cərrah-həkimdir. Onun təkcə mənəvi-əxlaqi mahiyyəti deyil, işıqlı təfəkkürü, iti ağlı da onu daş-qaş, var-dövlət hərisliyindən qorumuş, onu sədaqətə, sadəliyə, doğruluğa sövq etmişdir. Rəfiqəni Əminin yaraşıqlı sifəti, bahalı boyunbağısı yox, Cəlalın yanıq üzü, saf mənəviyyatı valeh etmişdir. Bu da bir növ sədaqətdir, bir növ lazımlı əxlaqdır...

Dramda iştirak edən başqa personajlar da öz ampluasında maraqlıdırlar. Eminin çirkin toruna düşən, fabrikin qabaqcıl toxucusu Əsmər onun hərəkətlərindən özünü təhqir olunmuş bilərək və bir daha onunla qarşılaşmamaq üçün fabrikdən getməyi qərara alır. Burada da Cəlalın humanizmi, milli mənəviyyatı onu bu yoldan sapındırır, yenidən fabrikə qaytarır. Baş mühasib Bədəl Sadayev fabrikdə Emin Bəxtiyarovun törətdiyi çirkin əməllərin icraçısı kimi cinayət törətməkdən çəkinmir, öz kefi üçün yaşayır. Əsərdə kassir Fərman, fəhlə Gümrah, ev qulluqçusu Səriyyə də maraqlı obrazlardır.

Mehdi Hüseyn pyesdə mərkəzə çəkdiyi hadisələri mənəvi əxlaqı mövqedən yekunlaşdırır. Daha doğrusu, səhvin, ağılsızlığın, xəyanətin, iti nəfsin fabrikə, dövlətə, cəmiyyətə, vətənə vurduğu maddi və mənəvi ziyanı məhz insanlar çəkməli olur. Yəni əsər Cəlalın, Rəfiqənin, Kərim dayının və b. mənəvi gözəlliklərinin Əmin Bəxtiyarovun, Bədəl Sadayevin əxlaqi eybəcərlikləri üzərində qələbəsi ilə bitir.

**Nəticə.** "Alov" pyesi sovet cəmiyyətində aktual, gərəkli olduğu kimi bütün dövrlər və cəmiyyətlər üçün də aktual və dəyərlidir.

**ƏDƏBİYYAT**

1. Qulu Xəlilov. Vətəndaş yazıçı. Zivər Hüseynova, Dəryadan damlalar. Bakı, "Səda", 2009.
2. Yaşar Qarayev. Nəsrin və sənətimizin ağrı yaddaşı – Cəlil Məmmədquluzadə. Seçilmiş əsərləri, 5 cilddə, IV cild. Bakı, “Elm”, 2016.
3. Yəhya Seyidov. Mehdi Hüseyn. Bakı, “Yazıçı”, 1979.
4. Yaşar Qarayev. Konfliktlərimiz və qəhrəmanlarımız. Seçilmiş əsərləri, 5 cilddə, I cild. Bakı, “Elm”, 2015.
5. Cəfər Cəfərov. Əsərləri, 2 cilddə, I cild. Bakı, Azərnəşr, 1968.
6. Mehdi Hüseyn. Seçilmiş əsərləri. 3 cilddə, III cild. Bakı, "Avrasiya-Press", 2005.